Tarix və onun problemləri, №2 2010

**A.A. ŞİRİYEV**
***BDU-nun psixologiya kafedrasının dissertantı***

# KIÇIK HƏRBI QRUPLARDA SOSIAL-PSIXOLOJI IQLIMIN ÖYRƏNILMƏSININ YOL VƏ VASITƏLƏRI

Sosial-psixoloji iqlimin mahiyyəti nədir?

Professor, psixologiya elmləri doktoru Əkbər Bayramov bu hadisəni belə izah edir: «Sosial-psixoloji iqlim dedikdə insanın insanı qavramasının, onların arasındakı ünsiyyət və əlaqənin xüsusiyyətlərindən, eləcə də onları birləşdirən və ya ayıran hisslərin, qiymət və ya rəylərin xarakterindən təşkil olunan spesifik bir hadisə nəzərdə tutulur» (1, 90).

Əgər bu hadisənin tədqiq etdiyimiz kiçik hərbi qruplara təsirini nəzərdən keçirsək, onda sosial-psixoloci iqlimə belə tərif verə bilərik: «Sosial qavrayışın səviyyəsi və kiçik hərbi qrup üzvlərinin ünsiyyət və qarşılıqlı əlaqəsinin məmnunluq həddi ilə xarakterizə olunan kollektivin vəziyyəti sosial-psixoloji iqlim adlanır». Onu da qeyd etmək lazımdır ki, sosial qavrayış öz növbəsində hərbi kollektivin şüur səviyyəsindən, mənəvi və ideoloji yetkinliyindən çox asılıdır. Qavrayış hərbçilərin ayrı-ayrı duyğularının, həyacanlarının və təəssüratlarının cəmindən hər hansı bir hadisəyə və ya komandirin təsirinə münasibət göstərməsindən əmələ gəlir və bunun nəticəsində fərdi və qrup hissləri, rəy və əhval-ruhiyyə formalaşır. Sosial-psixoloji iqlim fərdin və qrupun psixi xüsusiyyətlərinin qeyri-bərabər olması kimi incəliklərə malikdir. Məsələn, əsgərin xoş əhvalına həm qabaqcıl kiçik hərbi qrupda, həm də komandirlərin tələbkarlığının aşağı olduğu kollektivdə də rast gəlmək olar.

Hərbi kollektivin həyat şəraitində və fəaliyyətində sosial-psixoloji iqlimin əhəmiyyəti çox böyükdür. Bu, hərbçilərin münasibətlərinin, fikirlərinin, hisslərinin, əhvalının, həyacanının, istəyinin, marağının hakim mövqe tutan tərəfidir (2, 235).

Mənəvi-psixoloji təminat haqqında təlimatdan kiçik bir parçaya fikir verək: «Döyüş hazırlığının ən mühüm məsələsi-qoşunların mənəvi ruhunun möhkəmləndirilməsidir. Qoşunların mənəvi dəyanəti-intizamdan, döyüş ruhundan,qələbə əzmindən, soyuqqanlıqdan, şəxsi qürur hissindən, yüksək şərəf duymaqdan toplanır» (3, 29).

Bundan belə nəticə çıxarmaq olar ki, sosial-psixoloji iqlimin əsas hissəsi olan mənəvi ruh və ya mənəvi şərait ordu üçün ölüm və ya qalım məsələsidir. Onu nəzərə almamaq qeyri-mümkündür. Ordunun yüksək mənəvi ruhu məğlubiyyəti qələbəyə çevirməyi bacaran bir vasitədir. Ordu o vaxt məğlub olmuş sayılır ki, onun düşərgəsində məğlubiyyət hissi baş qaldırır. Çünki məğlubiyyət cismani vəziyyət deyil, ağlın, hissin nəticəsidir.

Kiçik hərbi qruplarda sosial-psixoloji iqlimin öyrənilməsi zabit-rəhbərlər tərəfindən həyata keçirilir və bu iş hərbi intizamın möhkəmləndirilməsinə, hərbçilərin daha sıx mütəşəkilliyinə, hərbi kollektivin döyüş və mənəvi hazırlığının daha yüksək səviyyəyə çatmasına qulluq edir. Belə öyrənilmə müəyyən üsullar vasitəsi ilə həyata keçirilir. Onu da qeyd etmək lazımdır ki, psixologiyaya məlum olan bütün üsullardan kiçik hərbi qruplarda sosial-psixoloji iqlimin öyrənilməsi üçün geniş istifadə olunur.

Bu üsullardan ən geniş yayılmışı **müşahidə** üsuludur. Bu üsul vasitəsi ilə kiçik hərbi qrupların müəyyən faktlara, hadisələrə, vəziyyətlərə münasibət göstərməsi haqqında məqsədə yönəlmiş və daimi məlumat toplamaq imkanı əldə etmək olur. Məsələn, müşahidə üsulu vasitəsi ilə tank heyətinin əhval-ruhiyyəsi, rəyi və müəyyən hadisələrə qarşı necə münasibət göstərməsi haqqında tam məlumat toplamaq olar. Kiçik hərbi qrup-

larda sosial-psixoloji iqlimi öyrənmək üçün istifadə olunan müşahidə üsulu hərbçilərin və qrupun özünü necə aparması haqqında konkret məlumat toplamaq, baş verən hadisələrin, vaxtının, yerinin və vəziyyətinin qəti müəyyən edilməsinə imkan verir. Müşahidənin səmərəliliyinin şərtləri sualın dəqiq qoyulması, planlılıq, yığılmış materialın hissələrə bölünməsi, «vəziyyətin yoxlama siyahısı üzrə» tərtibi sayılır.

Müşahidə mütəşəkkil və ardıcıl surətdə təşkil edimәlidir. Öyrənilən hadisə barədə daha ətraflı məlumat əldə etmək üçün həmin hadisə müxtəlif şəraitdə nəzərdən keçirilməli, ona təsir edən amillər ətraflı və dəqiq surətdə araşdırılmalıdır. Müşahidənin keyfiyyətli aparılmasında müşahidəçinin xüsusi hazırlığı da az rol oynamır. Müşahidə və onun nəticələrinin təhlili müşahidəçidən obyektivlik tələb edir.

Müşahidə sadə, qoşulmuş, iştirak edən və vasitəli ola bilər. Məsələn, tədqiq olunan kiçik hərbi qrupda bu qrupun üzvü olan əsgər, tağım komandirinin müavini vəzifəsinə yeni təyin olunmuş çavuş, tağım komandiri və tədqiqat aparan zabit müxtəlif mövqelərdən iştirak edirlər.

Müşahidə üsulu ilə zabit-rəhbər tabeçiliyindəkilərin təkcə rəftarlarını təhlil etməli deyil, rəftarların yaranma səbəblərini, məqsədini, motivlərini, hisslərini, niyyətlərini açıqlamağa çalışmalıdır. O, tabeliyindəkini müşahidə vasitəsi ilə öyrənən zaman, həmçinin, döyüşçünün özü haqqında-öz fikirləri, hissləri, həyəcanları, əməlləri barəsində verdiyi məlumatlardan istifadə etməlidir. Psixologiyada bu məlumatlar özünühesabat adlanır (3, 88).

Özünühesabat-hərbi qulluqçuların fərdi xüsusiyyətlərinin öyrənilməsi üçün əsas vasitələrdən biridir. İnsanları təkcə xarici davranışlarına görə dəqiq və hərtərəfli tanımaq olmaz. Bu məlumatları onların hərəkət və əməllərini müşayət edən motivlər, maraqlar və həyəcanlarla tamamlamaq lazımdır. Özünühesabat məlumatları əməlin mahiyyətini açıqlamır, sadəcə olaraq onun göstəricisidir. Bu baxımdan zabit-rəhbər özünühesabat materiallarına tənqidi yanaşmalıdır.

Müxtəlif şəraitlərdə-psixoloji və döyüş hazırlıqları, qarovul xidməti, növbətçilik zamanı, yoldaşlar arasında, mədəni-maarif tədbirlərində, buraxılış zamanı döyüşçünü müşahidə etməklə, onun davranışını qabaqcadan müəyyən edib, xarakterini, istiqamətini, motivlərini, fikirlərini, həyacanlarını bilmək olar. Lakin belə dərin nəticələr üçün çoxlu vaxt, dəqiq və sistematik şəxsi müşahidə, kiçik komandirlərin, kollektiv üzvlərinin müşahidələri və nəticələrindən istifadə etmək tələb olunur.

Müşahidə üsulu zabit-rəhbərə psixoloji hadisələrin təzahürləri barədə müəyyən qədər qiymətli material verə bilər. Ahcaq onun bir sıra nöqsanları da vardır. Bu nöqsanların bir qismi müşahidə obyektinin xüsusiyyətlərindən asılıdır. Məsələn, kiçik hərbi qrupda döyüşçülərarası münasibətlərin bütün çalarlarını əhatə etmək olmur. Müşahidə vasitəsi ilə əldə edilən faktların təbiiliyi ilə yanaşı, onların nə dərəcədə qanunauyğun olduğunu və təsadüfdən fərqləndirmək də çətinlik törədir.

Kiçik hərbi qruplarda sosial-psixoloji iqlimi öyrənmək üçün növbəti üsul kimi **sınaqdan** istifadə edilir. Sınaq üsulu müşahidədən fərqli olaraq nisbətən qısa müddətdə daha dəqiq nəticələr əldə etməyə imkan verir. Sınaq üsulu ancaq qrup şəklində həyata keçirilir. Qrup sınağının əsas məğzi kiçik hərbi qruplari biləərkdən, əvvəlcədən yaradılan şəraitə salmaq və bunun nəticəsində həmin kollektivin psixologiyasında istər-istəməz aşkar olunan keyfiyyətlərin tədqiqidir. Məsələn, heyət hazırlamaq məqsədi ilə bir qrup hərbçi eyni vaxtda süni surətdə yaradılan mühitə salınırlar və belə vəziyyətdə bir müddət saxlanılırlar. Bu zaman sınaqçı bilərəkdən vəziyyəti çətinləşdirir və bəzi məhdudiyyətlər qoyulur. Sınağın şəraitinin dəyişilməsi ilə kiçik hərbi qrupların psixologiyasında da dəyişikliklər nəzərə çarpır. Belə şəraitdə tədricən emosional zəifləmə və ya kollektiv affekt vəziyyəti yarana bilər. Ancaq kiçik hərbi qrupun psixologiyası möhkəm-

dirsə, belə vəziyyətdə cavabdehlik hissinin yüksəlməsi, qarşılıqlı yardımın və ruhlandırmanın güclənməsi, yekdilliyin möhkəmlənməsi baş verəcəkdir.

Psixoloji hadisələri tədqiq etmək üçün sınağın qoyuluşu bir sıra çətinliklərlə əlaqədardır. Sınağın obyekti sadəcə canlı orqanizm deyil, yüksək şüura malik insanlardır. Onlar əxlaq və davranış normaları barədə nəinki müəyyən biliklərə malikdirlər, həm də həmin biliklərin mənbəyini və təşəkkül yollarını bilirlər. Bu cəhətləri də dəqiq surətdə nəzərə almaq və öyrənmək heç də asan deyildir. Xüsusilə özləri üzərində sınaq qoyulduğunu hiss etdikdə, onların rəftar və davranışında, emosional aləmində istər-istəməz müəyyən dəyişikliklər baş verir. Bu laborator sınaqla yanaşı təbii sınaq növündən də geniş istifadə edilir.

Laborator sınaqlar laboratoriyalarda və ya xüsusi otaqlarda aparılır. Buna misal kimi Ali Hərbi məktəblərə daxil olan abituriyentlərlə keçirilən xüsusi psixoloji sınaqları göstərmək olar.

Təbii sınaqda xüsusi eksperimental şərait yaradılmır. Hadisə təbii şəraitdə, hərbi xidmət zamanı və yaxud məşğələlər zamanı müşahidə vasitəsilə öyrənilir. Məsələn, taktiki məşğələlər zamanı şəraitin ayrı-ayrı elementlərini dəyişdirərək, əlavə məlumatlar verərək, hər hansı bir döyüşçünün hərəkətlərini müşahidə etmək və onun bilikləri, hafizəsi, düşüncəsi, təşəbbüskarlığı, inadkarlığı və başqa keyfiyyətləri haqqında nəticə çıxarmaq olar.

Göründüyü kimi, müşahidədən fərqli olaraq, sınaq zamanı zabit-rəhbər fəal tərəf kimi çıxış edir, müəyyən psixoloji hadisənin mahiyyətini izah etməkdən ötrü zəruri olan şəraiti özü yaradır.

Sosial-psixoloji iqlimi öyrənmək üçün istifadə edilən metodlardan biri də kiçik hərbi qrupların fərdi xüsusiyyətlərinin, fəaliyyətinin nəticələrinin təhlili üsuludur. Bu üsul vasitəsilə zabit-rəhbər tabeliyində olan kiçik hərbi qrupun daxilində baş verən bütün psixoloji prosesləri araşdırıb, onları istədiyi istiqamətə yönəltməlidir.

Zabit-rəhbərin sosial-psixoloji iqlimi öyrənmək üçün həmçinin, fərdi və qrup söhbətlərindən istifadə etməsi məqsədəuyğundur. Təbii ki, hər bir söhbət döyüşçünün daxili aləmini, onun fərdi xüsusiyyətlərini başa düşməyə imkan vermir. Zabit-rəhbər tabeliyindəkilərin fikirlərini, tələbatlarını vaxtaşırı deyil, mütəmadi olaraq məqsədyönlü söhbət aparmaqla təhlil etməlidir. Söhbətin həmçinin, qarşılıqlı inam şəraitində aparılması daha yaxşı nəticələr verə bilər.

Növbəti üsul kimi, zabit-rəhbər **müsahibədən** istifadə edə bilər. Müsahibə sorğu üsulları silsiləsinə daxil olub, mənaca «qarşılaşma», «söhbət» deməkdir. O daha çox birtərəfli kommunikasiya proseidir. Bu zaman hər hansı məsələ haqqında müəyyən bir şəxsin mülahizəsi soruşulur. Zabit-rəhbər nəzərə almalıdır ki, müsahibə kiçik hərbi qrupda hər hansı bir problemi aradan qaldırmaq üçün ilkin fərziyyəni müəyyənləşdirmək, bu barədə məlumat toplamaq və başqa üsullar vasitəsilə yığılmış materiallara əlavə faktlar cəlb etmək üçün tətbiq edilir. Müsahibə zamanı mehribançılıq, xeyirxahlıq və səmimilik şəraitinin yaradılmasının əsas şərt olmasını da nəzərə almaq lazımdır.

Zabit-rəhbər kiçik hərbi qruplarda sosial-psixoloji iqlimi öyrənmək üçün **anket üsulundan** da istifadə edə bilər. Anket sorğusu zamanı müsahibədən fərqli olaraq, suallara yazılı surətdə cavab verilir. Bu üsul hərbi hissələrdə çox geniş yayılmışdır. Zabit-rəhbər nəzərə almalıdır ki, bu sorğuya başlamazdan əvvəl ciddi hazırlıq işləri aparılmalı, anketə daxil olan sualların dəqiqliklə hazırlanması vacibdir. Kiçik hərbi qruplarda kollektiv üzvlərinin fikir və mülahizələrini öyrənmək üçün (hərbi qulluqçuların kollektivdə baş verən hər hansı bir hadisə və ya əməl haqqında fikrini, hər hansı bir təşəbbüsə olan münasibətlərini, mənəvi tələbatlarını, şəxsiyyətlərarası münasibətin vəziyyətini, bu

münasibətlərin pozulması səbəblərini) anket üsulundan istifadə etmək məqsədəuyğundur.

Kiçik hərbi qruplarda sosial-psixoloji iqlimi öyrənmək üçün **testlərdən** də istifadə edilir. Testlər psixodiaqnostika məqsədilə istifadə olunur. Test-ingiliscə sınaq deməkdir və o fərdi fərdləri öyrənmək məqsədiilə tətbiq olunur.Testlər müxtəlif tapşırıq və suallar şəklində hazırlanmalıdır. Testlərin psixodiaqnostik əhəmiyyəti onların elmi cəhətdən nə dərəcədə əsaslı olmasından bilavasitə asılıdır.

Zabit-rəhbərin bu və ya digər qrupda hərbi qulluqçular arasındakı qarşılıqlı münasibətləri öyrənmək üçün psixodiaqnostik metodların ən mühüm növü olan **sosiometriyadan** da istifadə edə bilər. Bir texniki vasitə kimi sosiometriya qarşılıqlı münasibətləri öyrənmək üçün əlverişli metoddur. Bu zaman sosiometrik seçmə yolu ilə qrupun sosiometrik şəbəkəsi müəyyən edilir. Bunun üçün şəxsi heyətə ən çoxu dörd suala cavab vermək tələb olunur. Suallar müxtəlif mövzuları əhatə edə bilər (Bəzən sosiometrik təcrübələrdə «Kiminlə kəşfiyyata getmək istərdin?» tipli suallardan da istifadə olunur). Hərbi qulluqçu suala cavab verdikdən sonra seçmənin motivini öyrənmək lazımdır. Sosiometrik təcrübənin nəticələri əsasında cədvəl və sosioqram tərtib olunur.

Sosiometrik cədvəl formasına görə idman cədvəlinə oxşayır. Cədvəldə şaquli xətt üzrə şəxsi heyətin adı və soyadı, üfüqi xətt üzrə onların sıra nömrəsi qeyd olunur. Sualı cavablandırarkən üfüqi xətt üzrə cavablar, Şaquli xətt üzrə isə kimin nezə səs alması və onlardan neçəsinin qarşılıqlı olması qeyd olunur. Cədvəl əsasında müxtəlif formalarda sosioqramlar tərtib oluna bilər.

Sosiometrik ədəbiyyatda qrup üzvlərinin mövqeyi: «ulduzlar», «fəallar», «təcrid edilməyən, lakin passiv olanlar» və «təcrid olunanlar» kimi xarakterizə olunur (sosioqramda onları müvafiq olaraq I, II, III və IV konsentrik dairədə qeyd edirlər). Bəzi müəlliflər «ulduzlar» və «fəalları» qrupun populyar, o birlərini isə qeyri-populyar üzvü kimi xarakterizə edirlər (4, 217).

Sosiometrik məlumatlar necə təhlil olunur? Əvvəlcə, məlumatların ilkin təhlili keçirilir. İlk növbədə, imzalanmamış vərəqlər ayırd edilir, suallara cavab verməmiş hərbi qulluqçular müəyyən olunur. Alınmış səslər hesablanır. Bundan sonra sosiometrik cədvəl tərtib olunur və sosioqramlar qurulur. Sosioqramlar aşağıdakı ardıcıllıqla tərtib olunur:

Birinci addım: Müsbət seçmələrin sosioqramı qurulur.

İkinci addım: əhəmiyyətli mənfi əlaqələr seçilir və təsvir olunur.

Üçüncü addım: Fərdi sosioqramlar qurulur.

Sosiometriya kiçik hərbi qrupun sosiometrik strukturunu təhlil etmək imkanı verir. Hər bir adam qrupda emosional statusa malik olur. Zabit-rəbər onu keyfiyyətcə müəyyənləşdirə bilsə, onda hər bir hərbçinin qrupda tutduğu statusu və ona müvafiq mövqeyini təyin edə bilər. Status kəmiyyətcə müsbət və mənfi seçmələrin miqdarı ilə ölçülür. Əgər kiçik hərbi qrup üzvlərinin statuslarını vahid ierarxiya kimi təsəvvür etsək, qrupun sosiometrik strukturu alınar. Onun motivasiya nüvəsinin öyrənilməsi, formalaşması və korreksiya olunması zabit-rəhbərin başlıca vəzifələrindən biri olmalıdır.

Sosiometrik seçmə hərbçinin qrupdaxili münasibətlər sistemindəki mövqeyini hələ mütləq mənada müəyyən etmir. Ona görə də zabit-rəhbər kiçik hərbi qruplarda sosial-psixoloji iqlimi öyrənmək üçün daha bir psixodiaqnostik üsuldan-**referentometriyadan** istifadə edə bilər. Referentometriya üsulu referent qrup anlamına söykənir. Bu üsul hərbçi üçün «əhəmiyyətli şəxsiyyətlər» dairəsini müəyyənləşdirmək imkanı verir. Əgər sosiometriya kiçik hərbi qrupda emosional münasibətlərin strukturunu açıqlayırsa, referentometriya hərbi qulluqçuların referent qrupunu müəyyənləşdirmək imkanı verir (Referentometrik materiallar sosiometrik materiallar üslubunda təhlil olunur). Hər

hansı qrup üzvünün mövqeyini sosial-psixoloji planda düzgün xarakterizə etmək üçün zabit-rəhbərin onu həm də, referentometrik planda öyrənilməsi zəruridir.

Beləliklə, zabit-rəhbərin kiçik hərbi qruplarda sosial-psixoloji iqlimi öyrənməsi üçün hərbi və sosial psixologiyanın müxtəlif və rəngarəng üsulları mövcuddur. Zabit-rəhbər tədqiqatın səmərəli olması üçün konkret problemin elmi surətdə həllinə imkan verən adekvat üsulların seçilməsinə xüsusi diqqət yetirməlidir.

### *ƏDƏBIYYAT:*

1.Bayramov Ə.S. Etnik psixologiya məsələləri. Bakı: Elm və həyat, 1996, 206 s.
2.Подоляк Я.В. Личность и коллектив: психология военного управления. М: Воениздат, 1989, 350 с.
3.Mənəvi-psixoloji təminat haqqında təlimat. Bakı: Hərbi nəşriyyat, 1996, 84 s.
4.Основы психологии и педагогики высшей военной школы / Под ред. В.В.Шеляга. М.: ВПА, 1975, 336 с.
5.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-poliqraf, 2003, 356 s.

**А. А. ШИРИЕВ**

## ПУТИ И МЕТОДЫ ИЗУЧЕНИЯ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКОГО КЛИМАТА В МАЛЫХ ВОИНСКИХ ГРУППАХ

Состояние коллектива, которое характеризуется уровнем социального восприятия и мерой удовлетворенности его членов различными сторонами общения и взаимодействия, называется социально-психологическим климатом.

Основные компоненты психологии коллектива весьма сложны и включают в себя большое число элементов. Каждый структурный компонент своеобразен. Он имеет свою характеристику. Поэтому при общей структуре психология каждого конкретного коллектива своеобразна и неповторима.

Существуют разнообразные методы изучения социально-психологического климата в малых воинских группах. Такие методы как наблюдение, проверка, интервью, анкетный метод должны быть проведены офицером-воспитателем постоянно. Ему в своей работе целесообразно использовать также психодиагностические методы, такие как психологические тесты, социометрия и референтометрия.

**A.A.SHIRIEV**

## WAYS AND METHODS OF STUDYING OF A SOCIALLY PSYCHOLOGICAL CLIMATE IN SMALL MILITARY GROUPS

The condition of collective, which is characterised by level of social perception and a measure of satisfaction of its members the various parties of dialogue and interaction, called as a socially psychological climate.

The basic components of psychology of collective are rather difficult and include a great number of elements. Each structural component is original. It has the characteristic. Therefore, at the general structure the psychology of each concrete collective is original and unique.

There are various methods of studying of a socially psychological climate in small military groups. Such methods as supervision, check, interview, a biographical method should be spent the officer-tutor constantly. In the work, it is expedient to it to use also psycho diagnostic methods, such as psychological tests, sosiometriya and referentometriya.

***Rəyçilər: p.e.n.K.Q.Kazımova, f.e.d.Z.Hacıyev.***

***BDU-nun psixologiya kafedrasının 29 yanvar 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №09).***